### *MÖVZU 2*

### *Beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi münasibətlərin obyektiv əsasıdır*

## 2.1. Beynəlxalq əmək bölgüsünün mahiyyəti və əsas formaları

Beynəlxalq əmək bölgüsü (BƏB) BİM-in mahiyyətini açan əsas kateqoriyadır. Bu özünü onda göstərir ki, dünyanın istənilən ölkəsi bu və ya digər formada BƏB-ə cəlb olunub. Müasir dünyada BƏB-də iştirak ölkənin qarşısında duran daxili və xarici vəzifələrin yerinə yetirilməsinin, ölkələr arasında qarşılıqlı faydalılığa əsaslanan münasibətlərin qurulmasının vacib vasitəsidir. BƏB-də iştirak ölkələrə daha az xərclə öz ehtiyaclarını ödəməyə və beləliklə də, əlavə iqtisadi səmərə əldə etməyə imkan verir.

BƏB-in mahiyyətini açmağa keçməmişdən əvvəl ilk olaraq ölkə daxilində əmək bölgüsünün necə baş verdiyini qısaca olaraq nəzərdən keçirək. Ümumiyyətlə, əmək bölgüsü tarixən müəyyən olunmuş ictimai əmək sistemidir. O, cəmiyyətin inkişaf prosesində istehsal fəaliyyətinin differensiallaşması nəticəsində bərqərar olur.

Dünyanın istənilən ölkəsində ayrıca götürülmüş heç bir müəssisə həmin ölkənin cəmiyyətinə lazım olan bütün məhsulları istehsal etmək iqtidarında deyildir. Hər bir müəssisə müəyyən növ məhsulların hazırlanması üzrə ixtisaslaşır, yəni *müəssisələrin ixtisaslaşması* baş verir. O özünü bir neçə formada – *predmet, peşəkar* və *ərazi ixtisaslaşmaları* formasında göstərir. *Predmet ixtisaslaşması* müəssisənin müəyyən növ məhsulların istehsalı ilə məşğul olması deməkdir; *peşəkar ixtisaslaşma* isə müəssisədə əsasən müəyyən peşə mənsubiyyəti olanların (neftçilər, iqtisadçılar, hüquqşünaslar və s.) çalışdığını göstərir; *ərazi ixtisaslaşması* müəssisənin konkret ərazidə yerləşdiyini xarakterizə edir.

Təsərrüfat subyektlərinin ixtisaslaşması zəruri və mütləq şəkildə istehsal olunan məhsulların mübadiləsi ilə müşaiyət olunur. Bu cür qarşılıqlı təsir nəticəsində *müəssisələrarası əmək bölgüsü* meydana gəlir. Bu, əmək bölgüsünün universal formasıdır.

Əgər ixtisaslaşmış məhsul və ya xidmətlə mübadilə bir sahəyə aid olan istehsal subyektləri arasında baş verirsə, onda müəssisələrarası əmək bölgüsü *sahədaxili əmək bölgüsü*nə (məsələn, maşınqayırma müəssisələri arasında məhsul mübadiləsi) çevrilir. Əgər mübadilə müxtəlif sahələrə

aid olan müəssisələr arasında baş verirsə, onda əmək bölgüsünün *sahələrarası forma*sı (məsələn, sənayenin kömür və energetika sahələri arasında əlaqə) meydana gəlir. Əgər mübadilə müxtəlif istehsal növlərinə aid olan sahələr arasında həyata keçirilirsə, onda əmək bölgüsünün *növlərarası forma*sı (məsələn, maşınqayırma və kənd təsərrüfatı arasında olan iqtisadi əlaqələr) peyda olur. Nəhayət, müəyyən regionun müəssisələrinin istehsal etdikləri məhsulların digər regionda istehsal olunan məhsullarla mübadiləsi zamanı əmək bölgüsünün *regionlararası forması* (məsələn, Gəncə iqtisadi rayonu ilə Xaçmaz iqtisadi rayonu arasında əmtəə mübadiləsi) əmələ gəlir.

Yuxarıda deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, əmək bölgüsü məsələsini öyrənərkən müəssisələrin ixtisaslaşması formasını və müəssisələr arasında əmək bölgüsünün formalarını dəqiq surətdə fərqləndirmək lazımdır. Istehsal subyektlərinin ixtisaslaşamsı yuxarıda qeyd edildiyi kimi, özünü üç formada – predmet, peşəkar və ərazi əmək bölgüsü formasında göstərir. Əmək bölgüsü isə aşağıdakı formaların biri üzrə meydana gəlir – sahədaxili, sahələrarası, növlərarası və regionlararası. Bu formalardan hər biri özündə əmək bölgüsünün hər iki xarakterik cəhətlərini – mübadilə və ixtisaslaşmanı (hər üç formada) əks etdirir.

Beləliklə, *ölkə daxilində əmək bölgüsü* ayrı-ayrı təsərrüfat subyektlərinin müxtəlif əmtəə və xidmətlər istehsalında ixtisaslaşmaları və sonradan bu əmtəə və xidmətlərlə mübadilənin baş verdiyi əməyin təşkili sistemi və ya üsuludur. Yəni, əmək bölgüsü iki əsas cəhətlə - ixtisaslaşma və mübadilə ilə xarakterizə olunur.

Əmək bölgüsünün formaları ilə yanaşı onun növləri də fərqləndirilir. Adətən əmək bölgüsünün üç növü – *müəssisədaxili, ölkədaxili* və *ölkələrarası* və ya *beynəlxalq əmək bölgüsü* fərqləndirilir. Əmək bölgüsünün hansı sferada baş verdiyindən asılı olaraq o, ayrı-ayrı növlər üzrə differensiallaşır.

BƏB – ictimai əmək bölgüsünün xüsusi növüdür. O, ölkədaxili əmək bölgüsünün inkişafı əsasında yaranır. Qeyd edək ki, öz strukturlarına görə ölkədaxili əmək bölgüsünün və BƏB-in bir sıra ümumi cəhətləri vardır. *Birincisi*, onların hər ikisi ictimai əmək bölgüsünə aiddir. Çünki, onların hər ikisi cəmiyyət üzvləri arasında baş verir. *İkincisi*, həm ölkədaxili əmək bölgüsündə, həm də BƏB-də müəssisələrin ixtisaslaşması müəyyən növ məhsulların istehsalı və bu məhsullarla mübadilə əsasında baş verir. *Üçüncüsü*, qeyd olunan hər iki əmək bölgüsü forması özlüyündə müxtəlif müəssisələrin istehsal kollektivlərinin eyni zamanda mövcud olan əməyini əks etdirir. Bu müəssisələr istehsal etdikləri məhsulları mübadilə etməklə öz aralarında iqtisadi

əlaqələr qururlar. Beləliklə, həm ölkə daxilində, həm də dövlətlər arasında əmək bölgüsü xüsusi üsullarla həyata keçirilən birgə əməkdir.

BƏB-i ölkədaxili əmək bölgüsündən fərqləndirən əhəmiyyətli cəhətlər  mövcuddur. Bu fərqli cəhətlər özünü aşağıdakılarda göstərir:

1. BƏB və ölkədaxili əmək bölgüsü arasında daha çox nəzərə çarpan fərq onların fəalyyət sferalarının özünəməxsusluğundadır. Əgər ölkədaxili əmək bölgüsü hər hansı bir milli iqtisadiyyatın strukturunu əks etdirirsə, BƏB iki və ya daha artıq milli iqtisadiyyatlar arasında münasibətlərin qurulması deməkdir.
2. Digər fərq BƏB-in və ölkədaxili əmək bölgüsünün ölkələrin milli məcmu ictimai əməyinin strukturuna təsir istiqamətlərinin spesifikliyindədir. Ölkədaxili əmək bölgüsünün inkişafı zamanı milli iqtisadiyyatın strukturunun birbaşa dəyişilməsi baş verir. BƏB zamanı isə dəyişmə birbaşa yox, dolayı yolla, yəni milli iqtisadiyyatın digər ölkələrin ehtiyaclarına uyğunlaşdırılması yolu ilə baş verir. BƏB-in funksional təyinatı ondan ibarətdir ki, o, müxtəlif ölkələr arasında möhkəm iqtisadi əlaqələrin yaranmasına kömək etməklə onların milli məcmu ictimai əməyinin strukturuna daha faydalı iqtisadi təsir göstərir. Bu təsir BƏB-də iştirakın, ölkəyə öz səylərini istehsalı üzrə daha yaxşı şərtlərə malik olduğu məhsul buraxılışında cəmləşdirməyə imkan verməsi ilə müəyyən olunur.
3. Ölkədaxili əmək bölgüsü və BƏB arasında fərqlilik özünü həmçinin bu iqtisadi proseslərdə iştirak edən subyektlərin səlahiyyətlərinin həcmində göstərir. Məlumdur ki, ölkədaxili əmək bölgüsünün subyektləri kimi, ayrı-ayrı müəssisələr, firmalar, şirkətlər çıxış edirlər. Onlar həmçinin BƏB-in də subyektləridir. Lakin BƏB zamanı dövlətin rolu əhəmiyyətli dərəcədə artır ki, bu da özünü milli müəssisələrin xarici iqtisadi fəaliyyətlərinin dəstəklənməsində, bəzən isə məhdudlaşdırılmasında göstərir.
4. BƏB ölkədaxili əmək bölgüsündən bu proseslərdə fəaliyyət göstərən obyektlərin əhatə dairəsinin irihəcmliliyi ilə də fərqlənir. Məlumdur ki, ölkədaxili əmək bölgüsünün obyektləri kimi müxtəlif əmtəələr və xidmətlər çıxış edirlər. Ölkə daxilində müəssisələr həmçinin texnoloji nailiyyətlərlə, elmi-texniki təcrübə ilə, mütəxəssislər və işçilərlə mübadilə edirlər. Bütün bu sadalanan obyektlər BƏB üçün də xarakterikdir, lakin onların əhatə dairəsi əhəmiyyətli dərəcədə fərqlidir. Yəni, ölkə daxilində mübadilə olunan məhsul və xidmətlərin çeşidi beynəlxalq səviyyədə mübadilədən daha genişdir.

Yuxarıda deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, BƏB ölkədaxili əmək bölgüsünün davamı deyil. O, ictimai əmək bölgüsünün xüsusi, müstəqil növlərindən biridir.

Beləliklə, *beynəlxalq əmək bölgüsü* müxtəlif ölkələrin müəssisələrinin müəyyən əmtəə və xidmətlərin istehsalı üzrə ixtisaslaşdıqları və sonradan bu əmtəə və xidmətlərlə mübadiləni həyata keçirdikləri, qarşılıqlı surətdə asılı olan istehsalın təşkili sistemi və ya üsuludur.

BƏB-in mahiyyəti özünü istehsal prosesinin bölünməsinin və birləşməsinin dialektik vəhdətində göstərir. BƏB-in əsas məzmunu əmək fəaliyyətinin müxtəlif növlərinin ayrılmasından və xüsusiləşməsindən, onların qarşılıqlı fəaliyyətindən və bir-birlərini qarşılıqlı surətdə tamamlamalarından ibarətdir. Yəni, əmək bölgüsü təkcə ayrılma prosesi kimi deyil, həmçinin əməyin birləşdirilməsi üsulu kimi çıxış edir. BƏB-in əsası kimi müxtəlif ölkələr arasında baş verən qarşılıqlı iqtisadi fəaliyyət zamanı ixtisaslaşma və mübadiləyə olan obyektiv ehtiyacı göstərmək olar.

Yuxarıda göstərildiyi kimi, BƏB ölkələr arasında ictimai ərazi əmək bölgüsünün ən yüksək inkişaf səviyyəsidir. Bu, ölkələrin müxtəlif məhsullar üzrə iqtisadi mənfəət baxımından sabit surətdə ixtisaslaşmalarında və bu məhsullarla qarşılıqlı mübadilədə təzahür edir.

Qeyd etmək lazımdır ki, müəssisələrin beynəlxalq ixtisaslaşması da ölkə daxilində olan formalarda baş verir. Yəni, beynəlxalq qarşılıqlı əlaqəli istehsal sistemində iştirak edən müəssisələr müəyyən konkret məhsullar istehsal edirlər, bu müəssisələrdə konkret peşə nümayəndələri çalışırlar və bu müəssisələr müəyyən ərazilərdə yerləşirlər.

BƏB-in formalarına gəldikdə isə, dünya arenasında da istehsal fəaliyyətinin nəticələri ilə mübadilə müəyyən qruplara – istehsal sahələrinə, altsahələrinə və növlərinə daxil olan müəssisələr arasında baş verir. Və mübadilənin hansı qrupa daxil olan müəssisələr arasında baş verməsindən asılı olaraq BƏB-in uyğun formaları – sahədaxili, sahələrarası, növlərarası formaları meydana gəlir. Lakin dünya arenasında regionlararası forma əvəzinə iki ölkə arasında əmək bölgüsünü xarakterizə edən milli təsərrüfat forması əmələ gəlir.

*BƏB-in sahədaxili forması* milli təsərrüfatın hər hansı bir eyni sahəsinə aid olan müxtəlif ölkə müəssisələrinin müəyyən predmet, o cümlədən detal, aqreqat və s. istehsalı və mübadiləsi üzrə (məsələn, müxtəlif növ traktorların və onların hissələrinin istehsalı və mübadiləsi) səylərini təmərgüzləşdirmələri deməkdir.

*BƏB-in sahələrarası forması* əmək bölgüsünün milli təsərrüfatların müxtəlif sahələri (məsələn, maşınqayırma və bitkiçilik) arasında peyda olması demək deyil. Bu zaman söhbət eyni növ istehsalın, yəni sənayenin və ya kənd təsərrüfatının müxtəlif sahələri arasında əmək bölgüsündən gedir.

Yuxarıda qeyd olunan iki formadan fərqli olaraq *BƏB-in növlərarası forması* istehsalın müxtəlif növləri (məsələn, sənaye və kənd təsərrüfatı) arasında əmək bölgüsü deməkdir.

Nəhayət, *BƏB-in milli təsərrüfat forması* ölkələr arasında əmək fəaliyyətinin bölgüsünün onların milli iqtisadiyyatları miqyasında baş verməsidir. Bu forma ayrı-ayrı ölkələrin ümumi daxili məhsulun xarici bazarda satış üçün nəzərdə tutulmuş müəyyən hissəsinin istehsalı üzrə səylərini cəmləşdirməsini əks etdirir.

BƏB prosesində əsas budur ki, bu prosesin hər bir iştirakçısı BƏB-də iştirakdan iqtisadi maraq, mənfəət güdür və son nəticədə onu tapır. Beynəlxalq mübadilə zamanı BƏB-in üstünlüklərinin reallaşdırılması hər bir ölkəyə ən azı aşağıdakıları əldə etməyə imkan verir:

1) ixrac edilən əmtəə və xidmətlərin beynəlxalq və daxili qiymətləri arasında fərqi;
2) daha ucuz idxaldan istifadə etməklə milli istehsaldan imtinanın daxili xərclərin qənaətinə gətirib çıxarmasını.

Yuxarıda deyilənlərdən çıxış edərək BƏB-in məzmununu açan əsas tezisləri aşağıdakı kimi formalaşdırmaq olar:

- ✓ BƏB ictimai əmək bölgüsünün xüsusi növüdür, ölkə daxili əmək bölgüsündən fərqli olaraq BƏB müxtəlif ölkələrin müəssisələri arasında baş verir;
- ✓ BƏB iki xarakterik cəhətə - istehsalın ixtisaslaşması və mübadiləyə malikdir;
- ✓ müəssisələrin ixtisaslaşması üç formada – predmet, peşəkar və ərazi formalarında baş verir;
- ✓ istehsalın ixtisaslaşması formalarından fərqli olaraq BƏB-in müxtəlif formaları (sahədaxili, sahələrarası, növlərarası və milli təsərrüfat) müəyyən qrup müəssisələr arasında mübadiləni əks etdirir.

## 2.2. Beynəlxalq əmək bölgüsünün əsas konsepsiyaları

BƏB nəzəriyyəsi öz nəzəri əsaslarını və inkişafını ilk klassik iqtisadçılar – Adam Smit və David Rikardonun əsərlərində tapıb. İngilis iqtisadçısı A.Smit özünün “Xalqların sərvətinin təbiəti

və səbəbləri haqqında traktat" (1776) əsərində azad ticarətin və sahibkarlığın zəruriliyini sübut edirdi. Onun fikrincə, azad ticarətə qoyulan müxtəlif məhdudiyyətlər ayrı-ayrı regionlar və ölkələr arasında əmək bölgüsünün dərinləşməsinə mane olur. Bu maneələrin aradan qaldırılması və beynəlxalq mübadilənin fəaliyyət sahəsinin genişləndirilməsi son nəticədə milli iqtisadiyyatların ixtisaslaşmasına və onların qarşılıqlı asılılıqlarının güclənməsinə, bir sözlə ümumdünya təsərrüfatının bərqərar olmasına gətirib çıxarmalıdır.

A.Smit əmək bölgüsü prinsipini beynəlxalq iqtisadi əlaqələrə münasibətdə tətbiq edərək belə bir nəticəyə gəlib ki, mübadiləyə hazır olan hər bir ölkə mütləq üstünlüyə malik olduğu əmtəə üzrə ixtisaslaşdığı halda, bundan digər ölkələr də mənfəət qazanırlar. Beləliklə, A.Smitə görə, əmək bölgüsünün əsasında mütləq üstünlük prinsipinə əsaslanan ixtisaslaşma durur.

Lakin mütləq üstünlüyə əsaslanan ixtisaslaşma bu cür üstünlüyə malik olmayan ölkələrə beynəlxalq mübadilədə iştirak etməyə imkan vermir. A.Smitin nəzəriyyəsində mövcud olan bu çatışmazlıq digər ingilis iqtisadçıları – David Rikardo, R.Torrens və Con Stüart Millin əsərlərində aradan qaldırılmağa çalışılıb. Onların, xüsusilə də D.Rikardonun BƏB nəzəriyyəsinin inkişafına göstərdikləri əsas xidmət iqtisad elminin fundamental nəzəriyyələrindən birinin – müqayisəli üstünlüklər nəzəriyyəsini işləmələrindən ibarətdir.

Müqayisəli üstünlüklər (və ya istehsalın müqayisəli xərcləri) nəzəriyyəsinin əsasında ölkələr arasında istehsal şərtlərində fərqlərin mövcudluğu fikri durur. Prinsipcə istənilən ölkədə istənilən əmtəənin istehsalı prosesini təşkil etmək olar. Məsələn, Azərbaycanda kivi yetişdirmək mümkündür. Lakin çəkilən xərclərin çoxluğu səbəbindən onun dəyəri yüksək olardı. Bu və ya digər əmtəələrin istehsalı üçün çəkilən xərclərin müqayisəsi göstərir ki, bütün əmtəələrin istehsalındansa daha az xərc tələb edən əmtəənin istehsalına diqqəti yönəltmək daha sərfəli olardı. Bu əmtəə üzrə ixtisaslaşma mübadilə vasitəsilə xarici bazarda digər əmtəələri də əldə etməyə imkan verir. Məsələn, Azərbaycanda limonun becərilməsi kiviyə nisbətən xeyli ucuz başa gəldiyindən bu əmtəə üzrə ixtisaslaşma və mübadilə yolu ilə kiviyə olan ehtiyacın ödənilməsi daha sərfəli olardı.

Müqayisəli üstünlüklər nəzəriyyəsi sübut edir ki, müəyyən əmtəənin istehsalı üzrə ixtisaslaşma bir ölkənin digər ölkə qarşısında mütləq üstünlüyə malik olması ilə yanaşı, bu üstünlük olmadıqda da sərfəlidir. Məsələ burasındadır ki, əgər ölkədə heç bir məhsulun istehsalı üçün çəkilən xərc beynəlxalq səviyyədən aşağı deyilsə, onda elə bir məhsul var ki, ona çəkilən

xərclər bu orta səviyyəyə daha yaxındır. Onda ölkənin bu əmtəə istehsalı üzrə ixtisaslaşması daha mənfəətli olardı. Digər tərəfdən, əgər ölkə bir neçə məhsul istehsalı üzrə üstünlüyə malikdirsə, onda o, ən maksimal üstünlüyə malik olduğu əmtəə üzrə ixtisaslaşmalıdır.

Klassik məktəbin digər bir nümayəndəsi Con Stüart Mill isə öz əsərlərində aşağıdakı iki əsas məsələni sübut edib:

1) beynəlxalq istehsal ixtisaslaşması istiqamətində edilən təbii səylər son nəticədə bu ixtisaslaşmadan əldə edilən mənfəətlərin tarazlaşdırılmasına gətirib çıxarır;
2) tam və ya qismən ixtisaslaşma şərtləri istehsaldan əldə edilən gəlirlərin qeyri-bərabərliyi ilə müəyyən olunur.

Klassik iqtisadçıların ideyaları sonradan XX əsrin iqtisadçılarının əsərlərində öz inkişafını tapmışdır. Klassik iqtisadçılar ölkənin hansı əmtəə istehsalı üzrə ixtisaslaşmasının məqsədəuyğun olduğunu müəyyən etməyə çalışdıqları zaman ***əmək dəyəri nəzəriyyəsi***nə əsaslanırdılar. XIX əsrin ikinci yarısından etibarən isə ***istehsal amilləri nəzəriyyəsi*** geniş surətdə inkişaf etməyə başladı. Bu nəzəriyyəyə görə, əmtəənin istehsalı, onun dəyərinin formalaşdırılması zamanı üç faktor – torpaq, əmək və kapital iştirak edir. Bu nəzəriyyələr, həmçinin mütləq və müqayisəli üstünlüklər nəzəriyyələri barədə sonrakı mövzuda geniş surətdə məlumat veriləcəkdir.

BƏB-in modernləşdirilməsi istiqamətində müasir Qərb nəzəriyyələrinə gəldikdə isə, onları şərti olaraq iki qrupa bölmək olar:

1) "qarşılıqlı asılılıq" konsepsiyasının müxtəlif variantları;
2) BƏB-in mövcud modelinin yenidən qurulması üçün konkret tövsiyələr və planlar.

1970-ci illərin ortalarından yayılmağa başlamış qarşılıqlı asılılıq konsepsiyaları ideyaları "yeni BƏB nəzəriyyəsi"nin əsasını təşkil edir. Bu ideyalar bir sıra sənayecə inkişaf etmiş ölkələrin və beynəlxalq təşkilatların rəsmi doktrinalarında öz əksini tapmışdır.

"Qarşılıqlı asılılıq" konsepsiyasının nümayəndələrindən biri, holland iqtisadçısı K.Nuvenhuze öz ideyalarının əsaslandırılması üçün ilk növbədə bütün ölkələr üçün ümumi olan ekoloji faktorlara müraciət edir. Bu faktorlara o, aşağıdakıları aid edir:

1) ətraf mühitin qeyri-sabitliyi;
2) təbii resursların məhdudluğu və bərpa olunmaması.

Onun fikrincə, inkişaf etmiş ölkələrin (İEÖ) inkişaf etməkdə olan ölkələrdən (İEOÖ) xammal asılılığı və əksinə İEOÖ-in İEÖ-dən texnologiya asılılığı mövcud olan bir şəraitdə bu

ölkələr bir-birlərindən qarşılıqlı surətdə asılıdırlar və bir-birlərinə “qarşılıqlı təzyiq” edirlər. K.Nuvenhuzeyə görə, məhz bu situasiyadan çıxış edərək BƏB-i qurmaq lazımdır.

Digər Qərb iqtisadçısı R.Kuper (Harvard məktəbi) də qarşılıqlı asılılıq probleminə müraciət edərək onu bir neçə aspektdə nəzərdən keçirir. Onun fikrincə qarşılıqlı asılılığın dörd növü mövcuddur:

1) struktur asılılığı; bu zaman ölkələr bir-birlərindən o qədər asıldırlar ki, bir ölkənin iqtisadiyyatında baş verən dəyişikliyin təsiri özünü dərhal digər ölkədəki mövcud situasiyada göstərir;
2) iqtisadi siyasət üzrə müəyyən edilmiş məqsədlərin qarşılıqlı asılılığı;
3) iqtisadi inkişafın xarici faktorlarının qarşılıqlı asılılığı;
4) siyasi qarşılıqlı asılılıq.

Qarşılıqlı asılılıq konsepsiyaları ümumi xarakter daşımaqla, digər iqtisadi nəzəriyyələr qrupu – mövcud BƏB-in modernləşdirilməsi nəzəriyyələri üçün çıxış nöqtəsi rolunu oynayırlar. BƏB-in modernləşdirilməsinin əsas ideyası inkişaf etməkdə olan ölkələrə proteksionizm siyasətindən imtina edilməsinin və iqtisadiyyata geniş surətdə xarici kapitalı cəlb edilməsinin tövsiyə olunmasından ibarətdir.

Bir çox İEOÖ bu tövsiyəyə əməl edərək çoxsaylı birgə müəssisələr təsis etməklə, azad sahibkarlıq zonaları və s. təşkil etməklə “açıq qapı”, “açıq iqtisadiyyat” siyasəti yeritməyə başladılar. Bu siyasətdən ən çox mənfəət götürənlər Şərqi Asiya və Latın Amerikasının “Yeni Sənaye Ölkələri” adlandırılan dövlətləri oldu. Lakin maraqlıdır ki, onlar bu siyasəti həyata keçirərkən heç də tamamilə proteksionizm siyasətindən imtina etmirlər və ehtiyac olduqca ondan istifadə edirlər.

Qərb iqtisadçılarının nöqteyi-nəzərindən “yeni” və “modernləşdirilmiş” BƏB ideyalarının praktiki əhəmiyyəti nədən ibarətdir?

Əsas fikir İEOÖ-in sahəvi ixtisaslaşmasının yeni istiqamətinin bərqərar edilməsindən ibarətdir. Bu ölkələrə ilk növbədə İEÖ-in ehtiyaclarının ödəmək üçün əməktutumlu, materialtutumlu, standart məhsulların istehsalı və ixracı üzrə istiqamət götürməyi təklif edilir. Öz növbəsində, onların fikrincə, sənayecə inkişaf etmiş ölkələr öz maraqlarını yüksəkixtisaslı iş qüvvəsinin payının yuxarı olduğu və intensiv elmi-texniki prosesin baş verdiyi iqtisadiyyat sahələrində cəmləşdirməlidirlər.

Bu fikirlər ardıcıl olaraq praktikada reallaşdırılır. Belə ki, İEOÖ-də xarici kapitalın birbaşa investisiyalarının ümumi həcmində emaledici sənaye sahələrinə yönəldilmiş kapitalın payı artır, "çirkli" istehsalın İEOÖ-ə köçürülməsi prosesi baş verir. Bu zaman sahəvi ixtisaslaşma üçmərhələli sxem üzrə həyata keçirilir:

1) "yeni sənaye ölkələri" əsasən nisbətən ixtisaslı əmək və müasir texnologiyalar tələb edən əmtəələr istehsal edirlər;
2) İEOÖ-lərin bir qədər az inkişaf etmişləri əməktutumlu məhsulların istehsalına, xammal ixracına vurğu edirlər; daha az inkişaf etmiş ölkələr isə ümumiyyətlə bu sxemdən kənarda qalırlar;
3) sənayecə inkişaf etmiş ölkələr səylərini kapitaltutumlu, yüksək texnologiyaya əsaslanan məhsulların istehsalında təmərgüzləşdirirlər.

*BƏB-in müasir konsepsiyalarının, onun modernləşdirilməsi üzrə təklif olunan planların təhlili, həmçinin bu konsepsiyaların praktikada reallaşdırılması göstərir ki, dünya istehsal qüvvələrinin inkişafının hazırkı mərhələsində İEÖ və İEOÖ arasında beynəlxalq ixtisaslaşmanın və kooperativləşdirmənin yeni tipi formalaşmış, İEOÖ-lərin dünya təsərrüfatına inteqrasiyası güclənmişdir.*

## 2.3. İstehsalın beynəlxalq ixtisaslaşması: mahiyyəti və formaları

Son onilliklərdə dünyada baş verən genişhəcmli iqtisadi, siyasi, sosial və digər xarakterli proseslər dünya təsərrüfatına, BƏB-ə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. BƏB-in inkişafının əsas istiqaməti kimi istehsalın beynəlxalq ixtisaslaşmasının genişlənməsini göstərmək olar. Qeyd edək ki, beynəlxalq ixtisaslaşma BƏB-in məxsusi forması olmaqla onun mahiyyətini əks etdirir.

*İstehsalın beynəlxalq ixtisaslaşması* ölkələr arasında əmək bölgüsünün elə bir formasıdır ki, milli istehsalların differensiallaşması əsasında dünya üzrə eynicinsli istehsalın təmərküzləşməsi, müstəqil texnoloji proseslərin ayrılması baş verir və bu zaman ayrı-ayrı istehsal sahələrində məhsul istehsalı daxili ehtiyacları aşır.

Bu cür bölgü və inkişaf milli iqtisadi sistemlərin qarşılıqlı fəaliyyətini və eyni zamanda qarşılıqlı asılılığını gücləndirir. Milli iqtisadiyyatların bir-birləri ilə qarşılıqlı təsirə məruz

qalmaları əmtəə, xidmət və elmi-texniki biliklər ilə mübadiləni sürətləndirir, onun artımını intensivləşdirir.

Beynəlxalq ixtisaslaşma iki əsas istiqamət – istehsal və ərazi istiqamətləri üzrə inkişaf edir. Istehsal istiqaməti öz növbəsində aşağıdakılara bölünür:

- sahələrarası ixtisaslaşma;
- sahədaxili ixtisaslaşma;
- müxtəlif firma və müəssisələrin ixtisaslaşması.

Beynəlxalq ixtisaslaşmanın ərazi aspekti aşağıdakı istiqamətlərdə ixtisaslaşmaları nəzərdə tutur:

- ayrı-ayrı ölkələr;
- ölkə qrupları;
- regionlar.

Əksər iqtisadçıların fikrincə, istehsalın beynəlxalq ixtisaslaşmasının üç əsas növü vardır:

1) hazır məhsul istehsalı üzrə ixtisaslaşma (predmet ixtisaslaşması);
2) ayrı-ayrı dettalar üzrə ixtisaslaşama (hazır məhsulların komponentlərinin və hissələrinin istehsalı);
3) texnoloji və ya mərhələ ixtisaslaşması (yəni, ayrı-ayrı texnoloji proseslərin həyata keçirilməsi, məsələn, yığım, qaynaq və s.).

Yuxarıda qeyd olunan növlər arasında ölkələr arasında ən geniş yayılmışı hazır məhsul istehsalı üzrə ixtisaslaşmadır. Bu cür ixtisaslaşma zamanı ölkələr öz səylərini məhsulların müəyyən nomenklaturasının istehsalı üzrə cəmləşdirir, nomenklaturanın yerdə qalan hissəsinin istehsalından isə partnyor-ölkələrin xeyrinə imtina edirlər.

Bununla belə, aydındır ki, milli iqtisadiyatın heç də bütün sahələri beynəlxalq ixtisaslaşmada eyni dərəcədə iştirak etmirlər. Beynəlxalq ixtisaslaşmanın iştirakçıları bir qayda olaraq dinamik surətdə inkişaf edən və müasir texnologiyalardan istifadə edən müəssisə və firmalar və ya xammal sahəsində (neft, qaz, metal filizləri və s.) məşğul olan şirkətlər olurlar.

## 2.4. İstehsalın beynəlxalq kooperasiyası: xüsusiyyətləri və növləri

BƏB-in digər forması istehsalın beynəlxalq kooperasiyas;d;r. Onun obyektiv əsası kimi məhsuldar qüvvələrin artan inkişaf səviyyəsi, müstəqil müəssisələr arasında möhkəm və sabit istehsal əlaqələri prosesi çıxış edir.

Kooperasiya müəyyən məhsulun hazırlanmasında iştirak edən və bu zaman özünün təsərrüfat müstəqilliyini saxlayan müxtəlif müəssisələr arasında istehsal əlaqələrinin mövcudluğu deməkdir. Kooperasiyada iki xarakter cəhəti fərqləndirmək lazımdır: a) bu prosesin inkişafı zamanı müxtəlif ölkələrin müstəqil istehsalçıları ayrı-ayrı məhsul növlərinin yaradılması üzrə müqavilə əsasında birgə fəaliyyət həyata keçirirlər, yəni kooperasiya edən müəssisələr razılaşdırılmış məhsul çeşidinin birgə istehsalı üzrə məsuliyyəti bölüşdürürlər; b) kooperasiya birgə istehsalın iştirakçıları arasında mübadilənin olmasını nəzərdə tutur. Qeyd olunanlar göstərir ki, kooperasiya BƏB-in iki xarakterik cəhətini özündə əks etdirir və deməli, onun formalarından biridir.

Beynəlxalq istehsal kooperasiyası üçün aşağıdakı xüsusiyyətlər xarakterikdir:

1. Kooperasiyanın mürəkkəb formaları – sənaye birlikləri və ya transmilli şirkətlərdən fərqli olaraq kooperativləşdirmədə istehsal əlaqələri müxtəlif mülkiyyətçilər arasında baş verir. Bu, beynəlxalq istehsal kooperativləşdirilməsinin ən əsas xarakterik xüsusiyyətidir.
2. Beynəlxalq istehsal kooperasiyasının vacib xüsusiyyətlərindən biri də onun ilkin müqavilə xarakteri daşımasıdır. Kooperasiyada maraqlı olan müstəqil subyektlər – müxtəlif ölkələrin firma və müəssisələri – birgə istehsal prosesinin şərtlərini müqavilə əsasında razılaşdırırlar.
3. Beynəlxalq istehsal kooperasiya adi ticarətdən fərqlənir. Əmtəələrlə, xidmətlərlə, elmi-texniki biliklərlə beynəlxalq ticarət zamanı yalnız dəyər formasının dəyişilməsi baş verir və hər bir partnyor müəyyən istehsal funksiyalarını müstəqil olaraq yerinə yetirir. Kooperasiya zamanı isə partnyorların münasibətləri özünü bilavasitə istehsal prosesində əks etdirir. Kooperasiya üçün ticarətə nisbətən daha intensiv əməkdaşlıq xarakterikdir. Tərəflərin fəaliyyəti qarşılıqlı asılı xarakter daşıyır və onlar müəyyən təsərrüfat məqsədinin əldə edilməsinə yönəlmiş birgə fəaliyyəti həyata keçirirlər.
4. Beynəlxalq istehsal kooperasiyasının digər bir xüsusiyyəti bu zaman müəssisələr arasında qurulan istehsal əlaqələri uzunmüddətli xarakter kəsb etməsindən ibarətdir. Birdəfəlik olan

beynəlxalq ticarətdən fərqli olaraq kooperasiya münasibətləri uzun dövr üçün nəzərdə tutulur.

5. Nəhayət, beynəlxalq istehsal kooperasiyasının fərqləndirici xüsusiyyəti özünü həmçinin, onun bəzən kompleks xarakter daşımasında göstərir. Yəni, kooperasiya istehsal prosesi ilə yanaşı, elmi-tədqiqat işlərini, istehsala xidmət edən satış fəaliyyətini də əhatə edir.

Beynəlxalq istehsal kooperasiyası özünün inkişaf etmiş formalarında müxtəlif əməkdaşlıq sferalarını əhatə edir:

1) İstehsal-texnoloji əməkdaşlığa aiddir: a) lisenziyaların ötürülməsi və mülkiyyət hüquqlarının istifadəsi; b) layihə-konstruktor sənədlərinin, texnoloji proseslərin, məhsulun texniki səviyyəsinin və keyfiyyətinin, tikinti və quraşdırma işlərinin işlənməsi və razılaşdırılması; c) istehsalın idarə edilməsinin, standartlaşdırmanın, unifikasiyanın, sertifikatlaşdırmanın, istehsal proqramlarının bölgüsünün təkmilləşdirilməsi;
2) Kooperasiya olunmuş məhsulların satışı ilə əlaqədar ticarət-iqtisadi proseslər, yəni, qarşılıqlı əlaqəli məhsulun kooperantlar və bir sıra üçüncü şəxslər arasında reallaşdırılması;
3) Texnikaya satışdan sonra xidmətin göstərilməsi.

Əlaqələrinin qurulması zamanı əsasən üç metoddan istifadə edilir:

- birgə proqramların həyata keçirilməsi;
- müqavilə əsasında ixtisaslaşma;
- birgə müəssisələrin yaradılması.

Birgə proqramların həyata keçirilməsi iki əsas formada reallaşdırılır: istehsalın ardıcıl kooperasiyası və birgə istehsal.

İstehsalın ardıcıl kooperasiyası sifarışçinin istəyinə əsasən icraçı tərəfindən müəyyən işin görülməsini nəzərdə tutur. Bunun üçün tərəflər arasında xüsusi müqavilə imzalanır. Müqavilə ixtisaslaşması istehsal kooperasiyasının iştirakçıları arasında istehsal proqramlarının bölgüsünü nəzərdə tutr. Razılığa gələn tərəflər istehsalın bir-birlərini təkrarlayan proseslərini aradan qaldırmağa, həmçinin öz aralarında birbaşa rəqabətə yol verməməyə səy göstərirlər.

Birgə müəssisələr bütün dünyada genuş yayılmış inteqrasiya olunmuş kooperasiyadır. Bu cür təşkilati forma zamanı müxtəlif, qarşılıqlı surətdə razılaşdırılmış məqsədlərin reallaşdırılması üçün bir neçə iştirakçının resursları birləşdirilir.

Beynəlxalq istehsal kooperasiyasının növlərinin təsnifi Cədvəl 3.1.-də verilmişdir.

**Cədvəl 3.1.**

**Beynəlxalq istehsal kooperasiyasının növlərinin əsas əlamətlərinə görə təsnifi**

| Təsnifat əlamətləri | Növlər |
|---|---|
| *1. Subyektlərin sayına görə* | 1.1. İkitərəfli<br>1.2. Çoxtərəfli |
| *2. Obyektlərin sayına görə* | 2.1. Birpredmetli<br>2.2. Çoxpredmetli |
| *3. Əlaqələrin sahəvi strukturuna görə* | Sahədaxili<br>Sahələrarası<br>sənayedə<br>kənd təsərrüfatında<br>müxtəlif obyektlərin layihələşdirilməsi və tikintisi sahəsində<br>nəqliyyat və rabitə sahəsində<br>ticarət sahəsində |
| *4. Fəaliyyət növünə görə* | Sənaye və kənd təsərrüfatı arasında<br>Sənaye və tikinti arasında |
| *5. Ərazi əhatəiunə görə* | Regional<br>Refionlararası<br>Qitələrarası |

Kooperasiyanı onda iştirak edən subyektlərin sayına görə təsnifləşdirdikdə iki növ – ikitərəfli (əlaqələrdə iki müəssisə iştirak edir) və çoxtərəfli (kooperativləşdirmə bir neçə müəssisə arasında baş verir) növlər ortaya çıxır.

Beynəlxalq ikitərəfli və ya çoxtərəfli kooperasiyada iştirak edən təsərrüfat subyektləri bir-birlərini bir, iki və ya bir neçə növ məhsul və ya onun komponentləri ilə təchiz edə bilərlər ki, bu da onun obyektlərin sayına görə də təsnifləşdirilməsinə imkan verir. Bir aralıq predmetinin reallaşdırıldığı təqdirdə bu növü birpredmetli kooperasiya adlandırmaq olar. Əlaqələr bir neçə predmeti əhatə etdikdə isə söhbət çoxtərəfli kooperasiyadan gedir.

Beynəlxalq istehsal kooperasiyasında iştirak edən müəssisələrin hansı sahə və altsahələrə aid olmasından asılı olaraq onun sahədaxili və sahələrarası növlərini də fərqləndirmək olar.

Kooperasiya istehsalın müxtəlif növlərinə aid olan sahələr arasında baş verirsə onu sahələrarası deyil, növlərarası adlandırmaq olar. Növlərarası kooperasiya isə özünü sənaye və kənd təsərrüfatı, həmçinin sənaye və tikinti arasında olan əlaqələrdə göstərir.

Kooperasiyanın növlərinə ərazi əhatəsi prinsipindən yanaşdıqda onun regional, regionlararası və qitələrarası növlərini ayırmaq olar.

Bu cür təsnifləşdirmə göstərir ki, beynəlxalq istehsal kooperasiyasını BƏB-in təkcə sahədaxili formasına aid etmək olmaz. Əlbəttə, kooperasiyada bir sahə daxilində geniş surətdə istifadə edilir, lakin o müxtəlif sahələrə və istehsal növlərinə aid olan müəssisələr arasında da baş verir. Deməli, beynəlxalq istehsal kooperasiyasının xüsusiyyəti ondan ibarətdir ki, bu, BƏB-in sahədaxili, sahələrarası və növlərarası formaları əsasında reallaşdırılan orjinal bir formadır.

## 2.5. Beynəlxalq əmək bölgüsünün inkişaf amilləri və göstəriciləri

BƏB-in inkişaf amillərini və göstəricilərini xarakterizə etməmişdən əvvəl bir daha xatırladaq ki, ölkələri BƏB-də iştiraka sövq edən əsas səbəb daim artan ictimai ehtiyaclar və bu ehtiyacların ödənməsi üçün lazım olan resursların mövcud səviyyəsi arasında olan ziddiyyətdir. Ölkənin BƏB-də iştirak etməsinə təkan verən səbəb bir olsa da, onun BƏB-də iştirakını müəyyən edən amillər çoxsaylıdır. Bu amillərin təsnifi qısaca Cədvəl 3.2.-də göstərilmişdir.

BƏB-in inkişaf prosesi ortaya həmçinin onun ölçülməsi məsləsini çıxarır. BƏB-in inkişafını xarakterizə edən göstəricilər hansılardır? Ölkənin beynəlxalq əmək bölgüsündə (BƏB) iştirakını xarakterizə edən göstəricilərin təsnifatı Cədvəl 3.3.-də verilmişdir.

Ölkənin BƏB-də iştirakı barədə məlumat verən əsas göstəricilər kimi ixrac və idxal kvotaları göstərilir ki, onların da hesablanması barədə əvvəlki mövzuda məlumat verilmişdir.

İxrac kvotası mühüm analitik əhəmiyyətə malikdir. Birincisi, o, milli istehsalın xarici bazarlarda əmtəə satışının həcmindən asılılığını göstərir. İkincisi, bu göstərici ölkənin dünya bazarında satış məqsədilə müəyyən həcmdə əmtəə istehsalı üçün malik olduğu imkanları əks etdirir.

**Cədvəl 3.2.**

***Ölkənin BƏB-də iştirakını müəyyən edən amillər***

| ***1. BƏB-in milli amilləri*** | |
|---|---|
| 1) Ölkələrin təbii-coğrafi fərqləri | • təbii-iqlim şəraiti;<br>• təbii resurslar;<br>• ərazinin həcmi; |

| | |
|---|---|
| 2) Ölkələrin sosial-iqtisadi xüsusiyyətləri | • əhalinin sayı;<br>• ölkənin iqtisadi-coğrafi mövqeyi və s.<br><br>• ölkənin dünya iqtisadiyatında yeri;<br>• tarixi inkişafın, istehsal ənənələrinin və xaici iqtisadi əlaqə ənənələrinin xüsusiyyətləri;<br>• iqtisadiyatın və elmi-texniki inkişafın mövcud səviyyəsi;<br>• təsərrüfat tipi (bazar və ya planlı);<br>• xarici əlaqələrin qanunvericilik bazası və s. |
| ***2. BƏB-in beynəlxalq amilləri*** | |
| 1) Elmi-texniki tərəqqinin dünya üzrə səviyyəsi: bu səviyyə nə qədər yüksəkdirsə ölkələrin ixtisaslaşdıqları sahə bir o qədər elmtutumlu olur<br>2) Dünya bazarında tələb<br>3) Beynəlxalq hesablaşmalar sistemi<br>4) Ekoloji problemlər: bu problemlər təbii resursların bir əmtəə kimi dəyəri məsələsinə yeni keyfiyyətdən baxmağa məcbur edir | |

**Cədvəl 3.3.**

**Ölkənin BƏB-də iştirakını xarakterizə edən göstəricilərin təsnifi**[1]

| № | Göstəricilərin adı |
|---|---|
| | **A qrupu. İxrac-idxal əməliyyatları nümunəsində BƏB-in inkişaf səviyyəsi** |
| **1** | Ölkənin ixrac kvotası |
| **2** | İxracın artım tempinin ÜDM-nin artım tempini üstələməsi əmsalı |
| **3** | İdxal kvotası |
| **4** | İdxalın artım tempinin ÜDM-nin artım tempini üstələməsi əmsalı |
| **5** | Xarici ticarət kvotası |
| | **B qrupu. Beynəlxalq regionun (inteqrasiya birlikləri) ölkənin xarici iqtisadi əlaqələr sistemində yeri (ixrac əməliyyatları nümunəsində)** |
| **6** | ***Beynəlxalq regiona ixracın ölkənin ümumi ixracında payı*** |
| **7** | ***Beynəlxalq regiona ixracın artım tempinin ümumi ixracın artım tempini üstələməsi*** |

[1] Семенов К.А. Международные экономические отношения: Курс лекций. – М.: Гардарика, 1998, с. 177

| | |
|---|---|
| | ***əmsalı*** |
| **8** | ***Ölkənin beynəlxalq regiona ixracının həcminin həmin regionun ölkələrinin qarşılıqlı ixracında payı*** |
| **9** | ***Ölkənin beynəlxalq regiona ixracının artım tempinin həmin regionun ölkələrinin qarşılıqlı ixracının artım tempini üstələməsi əmsalı*** |

Ölkənin BƏB-ə cəlbini xarakterizə edən əsas göstəricilərdən biri də ixracın artım tempinin ÜDM-nin artım tempini üstələməsi əmsalıdır. İxracın artım tempi ilə ÜDM-nin artım tempini müqayisə etməklə ölkənin resurslarının BƏB-ə cəlb olunması dərəcəsinin dəyişmə perspektivləri barədə mühakimələr irəli sürmək olar. Əgər ixracın tempi ÜDM-nin tempini daim üstələyirsə, onda bu, ölkənin resurslarının BƏB-ə tam surətdə cəlb olunduğunu göstərir. Əgər üstələmə kifayət qədər ardıcıl surətdə baş vermirsə, onda bu, resursların BƏB-ə cəlb olunmasında istifadə edilməmiş imkanların mövcudluğunu əks etdirir. Əksinə, ÜDM-nin artım tempi ixracın artım tempindən yüksəkdirsə, bu, resursların BƏB sisteminə cəlb olunmasının zəifləməsindən xəbər verir.

Digər mühüm bir göstərici isə idxal kvotasıdır. Onu ixrac kvotası ilə müqayisə etmək, ixrac və idxal arasında nisbəti müəyyən etmək olar.

Ölkənin BƏB-ə cəlb olunmasını ölçmək üçün həmçinin idxalın artım tempinin ÜDM-nin artım tempini üstələməsi əmsalından da istifadə edilir. Idxal kvotasından fərqli olaraq, bu göstərici idxalın inkişaf tendensiyaları, həmçinin, milli iqtisadiyyatın xaricdən əmtəə alışından asılılığı barədə təsəvvür yaradır.

***Qeyd olunan göstəricilərdən başqa, ölkənin BƏB sisteminə cəlbini müşahidə etməyə imkan verən digər qrup göstəricilər də vardır. Beynəlxalq regionun (inteqrasiya birlikləri) ölkənin xarici iqtisadi əlaqələr sistemində yerini xarakterizə edən bu göstəricilər prosesin ayrı-ayrı aspektlərini öyrənməyə imkan verir.***

Beynəlxalq regionun ölkənin xarici iqtisadi əlaqələr sistemində yerini xarakterizə edən göstəricilərdən biri kimi, beynəlxalq regiona ixracın ölkənin ümumi ixracında payını göstərmək olar. Bu göstəricinin əhəmiyyəti ondan ibarətdir ki, o, beynəlxalq regionun ölkənin xarici iqtisadi əlaqələr sistemində yerini müəyyən etməyə imkan verir.

Digər bir mühüm göstərici isə beynəlxalq regiona ixracın artım tempinin ümumi ixracın artım tempini üstələməsi əmsalıdır. Bu əmsalı bəzən üstələmə əmsalı da adlandırırlar. Bu

göstəricinin ölkənin bir qrup xarici ölkə ilə qarşılıqlı iqtisadi əməkdaşlığının inkişaf sürəti haqqında təsəvvür yaratmağa imkan verir. Bu göstəricidən çıxış edərək həmin regionun ölkənin xarici iqtisadi əlaqələr sistemində yerinin necə dəyişməsi barədə fikir irəli sürmək olar.

***Başqa bir mühüm göstərici kimi isə ölkənin beynəlxalq regiona ixracının həmin regionun ölkələrinin qarşılıqlı ixracında malik olduğu payı göstərmək olar. Qarşlılıqlı ixrac dedikdə partnyor ölkələrin regional bazara məcmu ixracı nəzərdə tutulur. Qarşlılqlı ixracın tempinin istehsalın ümumi həcminin artımını üstələdiyi halda ölkənin BƏB prosesinə dərin surətdə cəlb olunduğunu söyləmək olar.***

Qeyd olunan göstəricilərdən başqa, bəzən sahənin beynəlxalq ixtisaslaşmasını xarakterizə edən göstərici kimi nisbi ixrac ixtisaslaşması əmsalından ($Ə_{nii}$) istifadə edirlər. O aşağıdakı formul üzrə müəyyən edilir:

$$Ə_{nii} = İ_{ö}/İ_{d}$$

Burada $İ_{ö}$ əmtəənin ölkə ixracında payı, $İ_{d}$ isə əmtəənin dünya ixracında payıdır.

Bu əmsalın köməyi ilə konkret ölkə üçün beynəlxalq münasibətdə ixtisaslaşmış sayılan əmtəə siyahısı və sahələri müəyyən edilir. Bu göstəricinin müəyyən çatışmazlıqları olmasına baxmayaraq, o, milli iqtisadiyyatın sahələr baxımından ixrac istiqamətlənməsinin ümumi parametrlərini və tendensiyalarını müəyyən etməyə imkan verir.  Bu əmsalın köməyi ilə həmçinin beynəlxalq ticarətin obyekti oan daha perspektivli əmtəələr müəyyən edilir.

BƏB dünya təsərrüfatında istehsalın genişləndirilməsi prosesinin reallaşdırılmasında getdikcə artan rol oynamaqdadır. O, bu proseslərin qarşılıqlı əlaqəsini təmin edir və uyğun beynəlxalq sahəvi və regional-sahəvi proporsiyalar formalaşdırır. Kapitalizm inkişaf etdikcə və bir dünya sisteminə çevrildikcə BƏB də formalaşmışdır. Bu formalaşmaya bir çox amillər, o cümlədən tarixi və coğrafi faktorlar, məhsuldar qüvvələrin vəziyyəti, təbii resursların mövcudluğu və s. təsir etmişdir.

BƏB-in inkişafına bir sıra amillər təsir edir. Bu zaman ilk növbədə əmək məhsuldarlığının yüksəldilməsi, istehsalın effektivliyinin yüksək həddinin əldə edilməsi, istehsal xərclərinin aşağı salınmasına yönəlmiş səylər qeyd edilməlidir. BƏB-in inkişafına həmçinin daxili bazarın həcmi, iqtisadi inkişafın səviyyəsi, ölkənin təbii resurslarla təminatı, milli iqtisadiyyatın sahəvi strukturu

da əhəmiyyətli dərəcədə təsir edir. Burada, eyni zamanda, etnik, sosial və siyasi amillər də müəyyən dərəcədə rol oynayırlar.

BƏB-in təsiri nəticəsində dünya iqtisadiyyatında əhəmiyyətli dəyişikliklər baş verir. Bununla yanaşı, BƏB proseslərinin özü də müxtəlif amillərin, ilk növbədə elmi-texniki tərəqqinin təsiri ilə müxtəlif dəyişikliklərə məruz qalır. Belə ki, BƏB-ə aktiv surətdə cəlb olunmuş sahələrin arasında hasiledici sənayenin və kənd təsərrüfatının payı getdikcə azalır, emaledici sənayenin payı isə əksinə, getdikcə artır. Sahədaxili əmək bölgüsü aktiv şəkildə inkişaf edir ki, bu da əmək məhsukdarlığının və məhsulların keyfiyyətinin yüksəlməsi ilə müşaiyət olunur. Birgə müqavilələrə və kapital qoyuluşlarına əsaslanan müəssisələrarası əmək bölgüsü yüksək sürətlə inkişaf edir.

Eyni zamanda, dünya təsərrüfatının ölkə qrupları arasında mövcud olan BƏB-in xarakteri də dəyişir. Belə ki, keçmiş sosialist ölkələri tamhüquqlu partnyorlar qismində BƏB-in dünya sisteminə cəlb olunurlar. Sənayecə inkişaf etmiş ölkələr, dünya inkişafının üç əsas mərkəzi arasında BƏB-in məzmunu əhəmiyyətli dəyişikliklərə məruz qalır. Transmilli şirkətlərin təsiri və milli sənayenin güclənməsi nəticəsində daha az inkişaf etmiş ölkələr ixtisaslaşma istiqamətlərinin dəyişməyə və “xammal əlavəsi” kimi çıxış etməkdən qaçmağa çalışırlar.